# Bitki karantinin təşkili

**Vəfa Rüstəmova**

*AQTA-nın sektor müdiri*

INTERNAL. This information is accessible to ADB Management and staff. It may be shared outside ADB with appropriate permission.

AQTA



1

- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1235 nömrəli Fərmanı ilə Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır. Həmin Fərmana uyğun olaraq, «Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2017-ci il 13 noyabr tarixli, 1681 nömrəli Fərmanla Agentliyin Əsasnaməsi təsdiq edilmişdir.

2

- Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxs statusunda yaradılmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli Qərarına əsasən İnstitutun Nizamnaməsi təsdiq edilmişdir.

3

- Azərbaycan Respublikası Prezidentinin 26 yanvar 2018-ci il tarixli 3596 nömrəli və 22 may 2018-ci il tarixində 130 nömrəli Sərəncamlarına əsasən müvafiq dövlət orqanlarının balansında fəaliyyət göstərən laboratoriyalar, avadanlıqlar, inzibati binalar və ştat vahidləri Agentliyin balansına verilmiş və nəticədə Bakıda və regionlarda ən müasir avadanlıqlarla təchiz edilmiş, ən mürəkkəb təhlilləri aparmağa imkan verən 21 laboratoriyadan ibarət şəbəkə formalaşdırılmışdır.




INTERNAL. This information is accessible to ADB Management and staff. It may be shared outside ADB with appropriate permission.

# AQTA-nın təşkilati strukturu




INTERNAL. This information is accessible to ADB Management and staff. It may be shared outside ADB with appropriate permission.

# AQTA-nın regional mərkəzləri və həmin regiona daxil olan inzibati ərazi vahidləri



# Bitki sağlamlığının əhəmiyyəti

**Məhsuldarlığa təsiri**

Zərərli orqanizmlər hər il kənd təsərrüfatında 40%-ə qədər məhsul itkisinə səbəb olur.

**İqtisadiyyata təsiri**

Hər il bitki xəstəlikləri dünya iqtisadiyyatına 220 milyard dollardan çox, invaziv həşaratlar isə ən azı 70 milyard dollar ziyan vurur.

**Ətraf mühitə və insan sağlamlığına təsiri**

Zərərli orqanizmlərin introduksiyası illik 100 million dollar ətraf mühit itkisinə səbəb olur.

ABŞ-da 2002-2007-ci illərdə invaziv həşərat - zümrüd göyrüş böcəyinin (*Agrilus planipennis*) ziyanı milyonlarla ağacın məhvinə səbəb olmuşdur. ABŞ-ın 15 ştatında ürək-damar xəstəliklərindən 15,080 və aşağı tənəffüs yolları xəstəliklərindən 6,113 əlavə ölüm birbaşa bu faktla əlaqələndirilmişdir.

# Bitki sağlamlığının fəaliyyət istiqamətləri



- Fitosanitar nəzarətinə dair normativ tənzimləmənin həyata keçirilməsi;
- Bitki sağlamlığı sahəsində risklərin və böhran vəziyyətinin idarə edilməsinin təşkili;
- Ölkədə fitosanitar vəziyyətin araşdırılması və bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi;
- Karantin tətbiq edilən zərərli orqanizimlərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısının alınmasına yönəlmiş nəzarətin təşkili;
- Pestisidlərin, bioloji vasitələrin və aqrokimyəvi maddələrin qeydiyyatının aparılması və onların istehsalına, saxlanmasına, satışına və tətbiqinə dövlət nəzarətinin təmin olunması;
- İxrac olunan məhsullara fitosanitar sertifikatların verilməsi.

# Bitki sağlamlığı sahəsində görülmüş işlər

- Azərbaycan Respublikasının Fitosanitar İdxal tələbləri yenidən işlənmişdir.
- AQTİ-də fəaliyyət göstərən laboratoriyaların infrastrukturu beynəlxalq tələblərə uyğunlaşdırılmışdır.
- Ölkəyə virus və bakteriyaların daxil olmasının qarşısının alınması məqsədilə 23 ölkəyə əlavə idxal tələbləri müəyyənləşdirilmişdir.
- Bitki sağlamlığı sahəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilmişdir.
- Bitki sağlamlığının izlənməsi istiqamətində Milli Monitorinq Planı hazırlanmış və icrası həyata keçirilir.
- Karantin tətbiq edilən zərərli orqanizmlərin ölkə üzrə yayılma arealı müəyyənləşdirilərək xəritələşdirilməsi həyata keçirilir.
- 30-a qədər zərərli orqanizmin risk analizi hazırlanmışdır.

# Bitki sağlamlığı sahəsində görülmüş işlər

- Zərərli orqanizmlər barədə Avropa və Aralıq Dənizi Bitki Mühafizəsi Təşkilatına məlumat verilmişdir.
- Cari ildə müxtəlif ölkələrdən idxal olunan bitki və bitkiçilik məhsullarında aşkarlanan uyğunsuzluqlarla əlaqədar 68 bildiriş göndərilmişdir.
- Təsərrüfatlarda aparılan monitorinqlərin elektron modulu hazırlanmışdır.
- Fitosanitar nəzarət çərçivəsində 180 pomidor istehsalı təsərrüfatında sağlamlaşdırma tədbirlləri aparılmışdır.
- Fitosanitar sahədə beynəlxalq əməkdaşlıq həyata keçirilir.
- Sahibkarlarla mövcud problemlər və onların həlli istiqamətində görüşlər təşkil edilir.
- Mütəmadi olaraq daxili təlimlər keçirilir.

AQTA

# Bitki sağlamlığı sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülmüş işlər



**Beynəlxalq standartların tələbləri nəzərə alınmaqla qanunvericilik bazasının təkmilləşdirilməsi üzrə "Bitki sağlamlığı haqqında" Qanunun yeni redaksiyası hazırlanıb**

**Bitki mühafizəsi vasitələrinin qeydiyyatı, dövriyyəsi və istifadəsinə nəzarət mexanizminin təkmilləşdirilməsi istiqamətində Nazirlər Kabinetinin 10 nömrəli qərarına əlavə və dəyişikliklər hazırlanmışdır.**

**Azərbaycan Respublikasında aşkar edilməyən, məhdud dairədə yayılmış və ölkə üçün potensial təhlükə törədə bilən karantin tətbiq edilən zərərli orqanizmlərin siyahısı yenilənmişdir.**

**Azərbaycan Respublikasının Fitosanitar İdxal tələbləri yenidən işlənmişdir.**

**Fitosanitar sahədə 7 texniki normativ akt hazırlanmışdır.**

# Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda fəaliyyət göstərən laboratoriyalar



Virus, bakteriya və göbələk mənşəli bitki xəstəliklərini törədən zərərli orqanizmlərin diaqnostikası ən son texnologiyalara əsaslanan və yüksək həssaslığa malik cihazlarla və sterilliyi təmin olunaraq molekulyar səviyyədə yerinə yetirilir.



Laboratoriyalarda Avropa ölkələrinin bir çox qabaqcıl laboratoriyalarında təlim keçmiş peşəkar mütəxəssislər fəaliyyət göstərir.



Laboratoriyalarda fitopatogen zərərli orqanizmlərin diaqnostikası ilə yanaşı, bitki və bitkiçilik məhsullarında geni dəyişdirilmiş orqanizmlərin aşkarlanması həyata keçirilir.



AQTA-nın regional bölmələrində bitki sağlamlığı sahəsində ixtisaslaşmış laboratoriyalar fəaliyyət göstərir.

# Virus xəstəliklərinin ölkəyə daxil olmasının və yayılmasının qarşısının alınması istiqamətində görülən işlər

- İdxal olunan bitki və bitkiçilik məhsulları laborator müayinələrə cəlb olunur.
- IPPC çərçivəsində 23 ölkəyə Azərbaycana idxal edilən tərəvəz toxumlarının və şitillərinin təhlükəli virus və bakteriya xəstəliklərindən azad olması tələbi göndərilmişdir.
- Təsərrüfatlarda viruslara görə laborator müayinəyə cəlb olunmuş və viruslardan azad olması ilə bağlı sınaq protokolu ilə müşayiət olunan, habelə viruslara qarşı davamlı sortların səpin və ya əkin materialından istifadə tələbi qoyulmuşdur.
- Təsərrüfatlarda mütəmadi olaraq monitorinqlər keçirilir və götürülmüş nümunələr virusoloji müayinə edilir.
- İxracı nəzərdə tutulan məhsul partiyaları təyin edilmiş tezliklərlə virusoloji müayinə edilir.
- Virus mənşəli təhlükəli bitki xəstəliklərinin yayılmasına qarşı qabaqlayıcı və mübarizə tədbirlərinin aparılması qaydalarını müəyyənləşdirmək üçün vahid texniki normativ hüquqi akt hazırlanmışdır.
- Virus mənşəli təhlükəli bitki xəstəliklərinin ölkəyə daxil olmasının və yayılmasının qarşısını almaq məqsədilə mütəmadi olaraq maarifləndirmə işləri həyatta keçirilir.

AQTA

# Milli Monitorinq Planın həyata keçirilməsində əsas hədəflər



# Bitki sağlamlığının izlənməsi istiqamətində təsərrüfatlarda aparılan monitorinqlər

Pomidor
2500

Alma
326

Kartof
1062

Meyvə bağları
64

Soğan
68

# Təsərrüfatlarda aşkarlanan zərərli orqanizmlər

- Aşkarlanan karatin tətbiq edilən zərərli orqanizmlər
  - Kartof təsərrüfatları (59)
    - Qızılı kartof nematodu (*Globodera rostochiensis*)
  - Meyvə bağları (2)
    - Qəhvəyi çürümə (*Monilinia fructicola*)
    - Tut çanaqlı yastıcası (*Pseudaulacaspis pentagona*)

# Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin tənzimlənməsi istiqamətində yeniliklər

- Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin saxlanıldığı anbarlarda yoxlamalar aparılır.
- Pestisid, bioloji preparat və aqrokimyəvi maddələrin satış yerlərində monitorinqlər həyata keçirilir.
- 191 adda təsiredici maddənin idxalı, qeydiyyatı, istehsalı və tətbiqinin qadağa edilməsi ilə bağlı müvafiq qərar təsdiq edilmişdir.
- Beynəlxalq təcrübə nəzərə alınmaqla, preparatın dövlət qeydiyyatı şəhadətnaməsinin nümunəvi forması və buna müvafiq reyestrə daxil edildiyi AQTİS sisteminin yenilənməsi həyata keçirilir.
- Preparatın təkrar dövlət qeydiyyatına alınması üçün sahibkar tərəfindən bir ay öncədən ediləcək müraciət vaxtı üç ay öncəyə qədər uzadılmışdır.
- Preparatın ilkin və təkrar dövlət qeydiyyatına alınması zamanı təqdim olunan sənədlərlə bağlı tələblər sadələşdirilir.
- Dövlət sınağına göndərilmiş preparatın tarla və istehsalat sınaqlarının həyata keçirildiyi Elmi-Tədqiqat İnstitutlarına Agentlik tərəfindən dövri monitorinqlər təşkil edilir.

AQTA

| Bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin saxlanıldığı anbarlarda aparılan monitorinqlər | | | |
|---|---|---|---|
| Monitorinqlərin ümumi sayı | Uyğunsuzluq aşkarlanan müəssisələrin sayı | Uyğun müəssisələrin sayı | Partlayıcı təsirə malik gübrə aşkarlanan anbarların sayı |
| 209 | 155 | 54 | 87 |

# Bitki sağlamlığı sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində görülmüş işlər

Azərbaycan Respublikası bitki sağlamlığı sahəsində qüvvədə olan standartlara və digər normativ hüquqi sənədlərə uyğun olaraq, öz fəaliyyətini daha səmərəli təşkil etmək məqsədilə “Bitki mühafizəsi haqqında” Beynəlxalq Konvensiya (İPPC), Bitki Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatı (EPPO), BMT-nin Ərzaq və Kənd təsərrüfatı Təşkilatı (FAO), Avropa İttifaqı (Aİ), Dünya Bankı, Asiya İnkişaf Bankı, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) kimi beynəlxalq və regional təşkilatlarla, eləcə də bir çox xarici ölkələrlə əməkdaşlığı xeyli genişləndirmişdir.

Bitki mühafizəsi və karantini sahəsində bir çox ölkə ilə əməkdaşlıq sənədləri imzalanmışdır və uğurla icra edilir.

Hazırda Türkiyə, Rusiya Federasiyası, Argentina, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Özbəkistan, Pakistan, Qırğız, Səudiyyə Ərəbistanı Krallığı, Vyetnam, Xorvatiya, Avstriya, Misir kimi ölkələrlə bitki mühafizəsi və karantini sahəsi üzrə (bir saziş layihəsi pestisidlərdən və aqrokimyəvi maddələrdən təhlükəsiz istifadə sahəsində) əməkdaşlığın hüquqi bazanın möhkəmləndirilməsi məqsədilə saziş və anlaşma memorandumu layihələri hazırlanmış və imzalanması üzrə işlər aparılmaqdadır.

Fitosanitar sahədə informasiya sistemlərinin inteqrasiyası, eləcə də karantin nəzarətində olan məhsulların qarşılıqlı tədarükü zamanı fitosanitar sertifikatlarının elektron formada tətbiqinin mümkünlüyünün təmin edilməsi üzrə Rusiya Federasiyası və Belarus kimi ölkələrlə işlərə başlanılmışdır.

# Bitki sağlamlığı sahəsində beynəlxalq əməkdaşlıq istiqamətində görülmüş işlər

Bundan başqa 33 ölkənin müvafiq səlahiyyətli qurumları ilə Azərbaycan Respublikası ilə mövcud olan hökumətlərarası komissiyalar çərçivəsində müəyyən edilmiş istiqamətlər, o cümlədən bitki sağlamlığı üzrə əməkdaşlıq həyata keçirilir.

Agentliyin sədri və sədr müavinlərinin rəhbərlik etdikləri nümayəndə heyətləri ilə Türkiyə Respublikası, Rusiya Federasiyası, Gürcüstan, Latviya Respublikası, Litva Respublikası, Belarus Respublikası, Ukrayna, Özbəkistan Respublikası, Argentina Respublikası, Çin Xalq Respublikası, İtaliya Respublikası, İran İslam Respublikası, Polşa Respublikası, Avstriya Respublikası, Hindistan Respublikası, Rumıniya, Pakistan İslam Respublikası, Qazaxıstan Respublikası, Fransa Respublikası, Qırğız Respublikası kimi ölkələrin aidiyyəri qurumlarının nümayəndə heyətləri arasında həm fiziki, həm də virtual formatda görüşlər təşkil edilmiş, bir sıra ölkələrə işgüzar səfərlər təşkil edilmiş, həmin ölkələrlə fitosanitar sahədə təcrübə mübadiləsi, əməkdaşlığın inkişafı perspektivlərinə dair müzakirələr aparılmışdır.

Azərbaycan Respublikasının aidiyyəti qurumlarının əməkdaşlarının qeyd edilən beynəlxalq təşkilatların plenar iclaslarında və təlim kurslarında mütəmadi olaraq iştirakı təmin olunmuşdur.

# Bitki sağlamlığı sahəsində icra edilən beynəlxalq layihələr



# AQTA tərəfindən bitki sağlamlığı sahəsində verilən icazə sənədləri



- Daxili karantin sertifikatı
- İxrac fitosanitar sertifikatı
- Təkrar ixrac fitosanitar sertifikatı
- İdxal karantin icazəsi
- İdxal rəyi
- Bitki mühafizəsi vasitələrinin və aqrokimyəvi maddələrin qeydiyyat şəhadətnaməsi

AQTA

# Bitki sağlamlığı sahəsində verilən icazə sənədləri

| Sənədin adı | 2021 | 2022 | Ümumi sayı |
|---|---|---|---|
| İdxal karantin icazəsi | 3226 | 3050 | 6276 |
| İdxal rəyi (aqrokimyəvi preparatlar və bitki mühafizəsi vasitələri üçün) | 495 | 334 | 829 |
| İxrac fitosanitar sertifikatı | 8371 | 9753 | 18124 |
| Təkrar ixracat fitosanitar sertifikatı | 55 | 439 | 494 |
| Cəmi: | 12147 | 13576 | 25723 |

# Bitki sağlamlığı sahəsində islahatlar və yeniliklər

- Zərərvericilərə dair risklərin idarə edilməsi sisteminin qurulması;
- «Bitki sağlamlığı haqqında» qanunun layihəsinin hazırlanması;
- Beynəlxalq təcrübə əsasında bitki sağlamlığının izlənməsi istiqamətində Milli Monitorinq Planının hazırlanması və icrası, karantin tətbiq edilən zərərli orqanizmlərin ;
- Bitki mühafizəsi vasitələrinin qeydiyyatının və idxalı prosedurlarının sadələşdirilməsi;
- Bitki mühafizəsi sahəsində biotexniki mübarizənin və bioloji preparatlardan istifadənin genişləndirilməsinin təşviqi;
- Torpaqların tərkibində pestisid qalıqlarının miqdarının bütün ölkə üzrə təhlil edilməsi və qalıq miqdarının müəyyən edilməsi.

AQTA

AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**Təhlükəsiz qida ilə sağlam gələcəyə!**